Kim bir müsəlmana zərər verərsə, Allah da ona zərər verər. Kim bir müsəlmanı çətinliyə salarsa, Allah da onu çətinliyə salar

Əbu Sirmadan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Kim bir müsəlmana zərər verərsə, Allah da ona zərər verər. Kim bir müsəlmanı çətinliyə salarsa, Allah da onu çətinliyə salar."
[Həsən] [Əbu Davud, Ət-Tirmizi, İbn Məcə, Əhməd rəvayət ediblər]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmana zərər verməkdən, hər hansı bir işdə onun özünə, mal-dövlətinə və ya ailəsinə çətinlik yaratmaqdan çəkindirir, bildirir ki, kim bunu edərsə, Allah onun əməlinin müqabilində cəzasını verəcək.

http://www.sunnah.global/hadeeth/az/show/5375